Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

# Qərib Soltanın dərdli məzarı

## Həsən bəy Zərdabi yadigarının ruhu diqqətə ehtiyac duyur

**Tarix xoş hadisələrlə yanaşı, narahat, həllini tapmayan problemləri, müşkül qalan izləri də aparır və onlar illər keçdikcə sirlər, müəmmalar, hətta qara ləkələr kimi üzə çıxır. Bu ləkələrdən xilas olmadıqca isə xələflərin sələflər qarşısında borcları böyüyür... Sanki qınayırlar bizi, sanki bizi diqqətsizliyimizə, laqeydliyimizə görə bağışlamırlar.**





Daim millətinin tərəqqisini düşünmüş və ömrünü bu məslək yolunda şam kimi yandırmış Həsən bəy Zərdabinin özü, həmçinin öz ruhundan artıq nigaran olduğu ömür-gün yoldaşı, maarifpərvər ziyalı xanım Hənifə xanım (Abayeva) və Azərbaycanda qalmış, məşəqqətli, sirli həyat yaşamış Qərib Soltan Məlikovaların acı taleləri və hətta son mənzilləri da beləcə müəmmalar, sirlərlə doludur...

Bu vaxta qədər görkəmli maarifçidən yazanların demək olar ki, hamısı Həsən bəy Zərdabinin ömrünün son gününə kimi onunla çiyin-çiyinə (1901-1905-ci illərdə Bakıda ilk müsəlman qız məktəbinin müdiri kimi - müəl.) çalışmış, böyük məhrumiyyətlər yaşamış, ağrı-acılara qatlaşmış, o vəfat etdikdən sonra (1909-1919-cu illərdə Bakı birinci rus-tatar qız məktəbində müdir,1920-1926-cı illərdə Azərbaycan SSR Xalq Maarif Komissarlığında məsul vəzifədə işləmiş - müəl.) qızı ilə birlikdə xalqın qadın nümayəndələrinin savadlanması, gerilik buxovlarından azad olunması yolunda fədakarlıqla mübarizə aparmış Hənifə xanım Abayeva və onların Azərbaycanda qalmış, xalq maarifi işi aparmış övladları Qərib Soltan haqqında məlumatlarda ciddi yanlışlıqlara yol vermiş, onlarla bağlı tarixə ləkəli izlər salmışlar .

Bununla da həmin yazıları yazanlar Həsən bəy Zərdabinin Altay dağlarının ətəklərindən Azərbaycanımıza qərib bir durna kimi perik düşmüş, xalqımıza işıq bəxş etmiş ömür yoldaşı, 85 il müddətində qəbri dəqiq-dürüst məlum olmayan Hənifə xanım (Abayeva) Məlikova, istərsə də onların sonbeşikləri, ilk maarifçi qızlarımızdan olan, qadın azadlığını tərənnüm və təbliğ edən, bir insan həyatında iki tale yaşayan Qərib Soltanın ömür yazıları barədə tarixən mövcud qaranlıqlara və yanlışlıqlara nəinki tam olaraq aydınlıq gətirə bilməmişlər, hətta əsası olmayan "tarix"lər və "tarixçələr" uydurmuşlar.

Məsələn, Həsən bəy Zərdabiyə həsr olunmuş bir kitaba Tahir Aydınoğlu tərəfindən yazılmış ön sözü nəzərdən keçirək: ... "İkinci dəfə millətin, milli varlığımızın üstünə qara yel kimi əsən 1937-ci il təkcə dəyərli övladları deyil, müqəddəs nə varsa hər şeyi soldurdu, dağıtdı, uddu. Millətsevər ailələrdən biri kimi Həsən bəy Zərdabinin doğmalarını, yaxınlarını da pərən-pərən salmış, sinsitmişdilər. Böyük bir ailədə Həsən bəyin Bibiheybətdəki məzarına baş çəkməyə bir başıpapaqlı qalmamışdı. Bir gün növbə bu məzarın özünə də çatdı. Şəhərdə xəbər yayıldı ki, yeni çəkilən Salyan şossesi Şıx kəndində düz Bibiheybət məscidinin yerindən keçəcək. Kim istəyir əzizlərinin məzarını köçürüb aparsın, yoxsa dağılacaq, yolun altında qalacaq.

**Zərdabilər** ailəsi xəbəri eşidəndə güc-bəla 2 nəfər tapıb cənazənin qalıqlarını çıxarıb gətirməyə göndərdi. Bu iki adam "millətin mənəvi atası"nın qalıqlarını kiçik bir yeşiyə yığıb Bayıladək çiyinlərində gətirdi. Bayılda yeşiyi mədənlərədək uzanan tramvaya qoydular.Tutqun, hüznlü bir payız günündə 30 il əvvəl möhtəşəm bir izdihamın çiynində əbədiyyət yuvasına aparılmış bir cənazəni bax beləcə sakit, miskin,qərib bir kədərlə nəhəng şəhərin axirət ünvanlarından biri böyük dəryaya atılmış daş kimi ikinci dəfə uddu. Heç ayrıca məzarı, başdaşısı, nişanəsi də olmadı..."

Qeydin davamına keçməzdən əvvəl tarixi saxtalaşdırmaya bənzəyən bu iddiaya tarixi arqumentlərlə şərh verərək bildirirəm ki, böyük millət fədaisi dünyasını dəyişmişdisə, onun ailəsində yetişən, 1922-ci il təvəllüdlü Rauf Hacıyev 1937-ci ildə 15 yaşında idi və bu başıpapaqlının həmin dövrdə Soltan Muxtar oğlu Hacıyev ad-soyadlı müxtəlif partiya işlərində, məsələn, məşhur ictimai-siyasi xadim Əhməd bəy Pepinovun nazir olduğu ADR Əmək Nazirliyində məsuliyyətli dövlət məmuru işində, Ağdaşda, Nuxada, Göyçayda, Qubada, Salyanda, habelə başqa qəzalarda və **xüsusilə Bakı şəhər milisinin rəisi** vəzifəsində çalışmış tanınmış atası vardı.

Elementar sadə məntiqlə bu çox tanınmış və cəsarətli sovet çekistinin də başıpapaqlı vəzifəli, olsun lap vəzifəsiz qohumları olmuşdur. Belədə, obrazlı ibarələrlə **"Zərdabilər ailəsi xəbəri eşidəndə güc-bəla 2 nəfər tapıb cənazənin qalıqlarını çıxarıb gətirməyə göndərdi. Bu iki adam "millətin mənəvi atası"nın qalıqlarını kiçik bir yeşiyə yığıb Bayıladək çiyinlərində gətirdi"** yazmaq, fikrimcə, tarixi saxtalaşdırmaq deyilsə, nədir, nə deməkdir?!

İkincisi, əgər müəllif T.Aydınoğlu böyük el atasının ilk dəfn olunduğu yeri və oradan çıxarılmasını göstərirsə, davamda da tarixi dəlil ortaya qoymalıdır.

Üçüncüsü, hörmətli "ön söz" müəllifi qeydində "Zərdabilər" kəlməsini işlədir ki, elmi obyektivliklə deməliyəm ki, Həsən bəy Zərdabi övladlarından Midhət bəy, Səffət bəy, Pəri xanım və Qərib Soltan xanım Zərdabi soyadı və ya təxəllüsü ilə tarixdə keçmirlər. Bu ailə Məlikovlar kimi ümumi soyadı daşıyıb, bu, tədqiqatlarda belə də davam edir. Müəllif heç olmasa Zərdabilər ailəsi söz birləşməsini dırnağa almalı idi.

Həmin "ön sözün" davamında müəllif görkəmli maarifçinin üçüncü dəfə dəfn olunması həqiqətlərindən bəhs edərkən yenə tarixi yanlışlıqlara yol vermişdir. Belə ki, elmi qənaət, ehtimal belə olsa, məntiqə və doğru mühakiməyə əsaslanmalıdır. Obyektiv müəyyənlik üçün tarixə bizim dövrdə tarixlə bağlı yazılmış "tarixin" özündən konkret misal gətirək. "... Doğmaları repressiya olunmuş,əsəbləri pozulmuş Qəribsoltan "məzar" söhbətini eşidən kimi **qəzəblənib əlinə keçəni universitet müəllimlərinin başına yağdırır.Qışqırır ki, atamın hər şeyini məhv elədiniz, indi gəlmisiz sümüklərini aparmağa. Bir də bu evə ayaq basmayın.**

**Əzablı günlər başlayır. Bilirlər ki, Qəribsoltan heç nə deməyəcək. Öyrənirlər ki, *arvadı yalnız Zərdabinin qız nəvəsi (?!),*** gənc bəstəkar Rauf Hacıyev dilə tuta bilər. Xoşbəxtlikdən Rauf məzarın yerini öyrənir. Deyir ki, babamın sümükləri 37-ci ildə şəhər qəbirstanlığında Hənifə nənəmin .... qəbrinin yanında basdırılıb".

Belə yanaşma tərzi, həqiqətdən uzaq, sübutu olmayan, tarixi şəxsiyyətlərimizin ruhuna hörmətsizlik izi ilə müəllifin bir müsahibəsində " Digər qızı Qərib Soltan biganəlik və yoxsulluq içərisində çırpınıb və məhz onun - ***Zərdabinin bu ağlını itirmiş son yadigarının*** sayəsində sonralar gizli qəbir (2-ci qəbir) üzə çıxarılıb" kimi, habelə Sevda İsmayıllı ad-soyadlı jurnalistin demək olar ki, T.Aydınoğlunun "ön söz"ündən yuxarıda gətirdiyimiz yanlışlıqları təkrarlayan məqaləsində də qarşılaşırıq. S.İsmayıllı "biliyini" öz təxəyyülü ilə rəngləyərək yazır: "Ancaq Qərib Soltan qalmışdı. ***Əsəbləri pozulmuş, cavan yaşda dünyanın hər üzünü görmüş Qərib Soltan...*** **İKİ FƏHLƏ MİLLƏTİN MƏNƏVİ ATASINI TRAMVAYDA NECƏ APARDI...** Qərib Soltan xəbəri eşidəndə nə edəcəyini bilmədi. Nəhayət, ***2 nəfər fəhlə tapıb*** cənazəni qəbirdən çıxarmağa göndərdi. 1937-ci ilin payızında, o möhtəşəm dəfndən 30 il sonra pulla tutulmuş iki fəhlə Həsən Bəyin qalıqlarını bir yeşiyə qoyub (!) yola çıxdı. Bayıla qədər çiyinlərində gətirdilər. Bayılda tramvaya qoydular... Nə filmə mövzu olacaq bir lövhədir, deyilmi? Kaş, heç olmasa, bir sənədli film çəkmək imkanım olaydı! Tramvay taq-qa-tukla gedir, pəncərələrinə yağış çırpır, kimi apardıqlarını anlamayan fəhlələr yuxulanır, **Millət Atası da ayaqlarının altında! Düşən kim, çıxan kim**... "Bir az o tərəfə keç" qışqıran kim... Qoy hamı bu filmə baxsın! Qoy görk olsun! Qoy bizim nələrdən keçdiyimizi görsünlər!"...

*(davamı növbəti sayımızda)*

**Xatirə Quliyeva**
**AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun əməkdaşı,**
**fəlsəfə üzrə elmlər doktoru,dosent**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***